May 2017

# PwC Azerbaijan Times

## 18 saylı Buraxılış

### *Buraxılışın əsas xəbərləri:*

- **Vergi Məcəlləsinə dəyişiklik**
- **"Mərkəzi Bank haqqında" Qanunda dəyişiklik edilmişdir**
- **İnzibati xətalar Məcəlləsinə dəyişiklik edilmişdir**
- **Cinayət Məcəlləsinə dəyişiklik edilmişdir**
- **Əmək Məcəlləsinə dəyişiklik edilməsinə dair Qanun layihəsi**



Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2017 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Vergi Məcəlləsinə dəyişiklik*

14 aprel 2017-ci il tarixli Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanuna əsasən Vergi Məcəlləsinin 58.7-1-ci maddəsi yeni redaksiyada verilmişdir.

Yeni dəyişikliklərə görə aşağıdakı əməliyyatların nağdsız qaydada aparılmamasına görə (pul vəsaitlərinin nağdsız qaydada qəbul edilməməsinə görə) pul vəsaitlərini qəbul edən müvafiq vergi ödəyicilərinə maliyyə sanksiyası tətbiq edilir:

- Lizinq və kredit verən şəxslər tərəfindən pul vəsaitlərinin qəbul edilməsi;
- Sığortaçı və ya təkrar sığortaçı tərəfindən sığorta ödənişlərinin edilməsi və sığorta haqlarını qəbul edilməsi;
- Dövlət orqanları, dövlət mülkiyyətində olan hüquqi şəxslər, büdcə təşkilatları və publik hüquqi şəxslər tərəfindən xidmət haqlarının və digər yığımların qəbul edilməsi;
- Stasionar telefon və kommunal xidmətlərin haqqının qəbul edilməsi;
- Təhsil haqlarının qəbul edilməsi;
- Turagent xidmətlərinə görə haqların qəbul edilməsi.

Eyni zamanda aşağıdakı əməliyyatların nağdsız qaydada aparılmamasına görə (nağdsız qaydada ödəniş edilməməsinə görə) ödənişi edən müvafiq vergi ödəyicilərinə də maliyyə sanksiyası tətbiq edilir:

- ƏDV ödəyiciləri və/və ya vergi tutulan əməliyyatlarının ümumi həcmi ardıcıl 12 aylıq dövrdə 200,000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti göstərən şəxslər tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30,000 manatdan artıq olan ödənişlər;
- Digər şəxslər tərəfindən təqvim ayı ərzində ümumi məbləği 15,000 manatdan artıq olan ödənişlər;
- İşçilərə ödənilən əmək haqları və digər müvafiq ödənişlər*;
- Dövlət satınalma müqaviləsi üzrə əldə edilən vəsaitlərin xərclənməsi.

# PwC Azerbaijan Times

## 18 saylı Buraxılış

Tətbiq ediləcək maliyyə sanksiyası qanun pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin aşağıdakı faizləri miqdarında təşkil edir:

• 10% - təqvim ili ərzində belə hala 1-ci dəfə yol verdikdə;

• 20% - 2-ci dəfə yol verdikdə

• 40% - 3 və daha çox dəfə yol verdikdə

*Qeyd:* əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrdə 200,000 manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna təşkil edir.

### *"Mərkəzi Bank haqqında" Qanunda dəyişiklik edilmişdir*

Dəyişikliyə əsasən, Mərkəzi Bank tərəfindən sosial-iqtisadi əhəmiyyətli layihələrin maliyyələşdirilməsi, habelə iqtisadiyyatın real sektoruna maliyyə dəstəyinin təmin edilməsi məqsədilə dövlət zəmanəti əsasında banklara məqsədli kreditlər verilməsi barədə maddə ləğv edilmişdir. Həmçinin, dəyişiklik banklar tərəfindən borc öhdəliyinin həyata keçirilməsi məqsədi ilə Mərkəzi Bank tərəfindən dövlətin buraxdığı borc qiymətli kağızları əldə edilməsi qabiliyyətini təsdiq edən maddəni ləğv etmişdir.

### *İnzibati xətalar Məcəlləsinə dəyişiklik edilmişdir*

Dəyişikliyə əsasən, aşağıdakı hərəkətlərin həyata keçirilməsinə görə inzibati cərimə tətbiq ediləcək:

1) Dəniz nəqliyyatı sahəsində beynəlxalq konvensiyaların tələblərinə, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə zidd olaraq gəmilərin dəniz üzgüçülüyünün təhlükəsizliyinə, insan həyatına və ya ətraf mühitə real təhlükə yaradan uyğunsuzluqlarla istismar və idarə edilməsi;

2) Dəniz limanının "Gəmi və liman vasitələrinin mühafizəsi haqqında Beynəlxalq Məcəllə"də nəzərdə tutulmuş sənədlər olmadan fəaliyyət göstərməsi;

3) Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair Beynəlxalq Konvensiya"nın tələblərinə uyğun müvafiq sertifikata (diploma) malik olmayan şəxsin gəmidə həmin sertifikat (diplom) tələb olunan işlərə buraxılması.

### *Cinayət Məcəlləsinə dəyişiklik edilmişdir*

Dəyişikliyə əsasən, vəzifəli şəxslər tərəfindən torpaq sahələrini tikinti üçün ayırma qaydalarının pozulması cinayət məsuliyyətinə səbəb olacaq. Əvvəllər bu qaydanın pozulmasına görə inzibati məsuliyyət nəzərdə tutulurdu.

Bu müddəanın pozulmasına görə cinayət məsuliyyəti iki ilədək müddətə islah işləri və müvafiq vəzifəni tutmaqdan məhrum edilmədən başlayaraq səkkiz il azadlıqdan məhrum edilməyədək fərqlənir.

### *Əmək Məcəlləsinə dəyişiklik edilməsinə dair Qanun layihəsi*

Təklif edilən dəyişikliyə əsasən, işçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda işəgötürən tərəfindən əmək müqaviləsi ləğv edilməzdən əvvəl işçi işəgötürən tərəfindən həmin işəgötürənlə bağlanmış əmək müqaviləsinə uyğun olaraq müəyyən olunan əmək stajından asılı olaraq müvafiq müddətlərdə rəsmi xəbərdar ediləcək. Bir ilədək əmək stajı olduqda işçi azı iki təqvim həftəsi, bir ildən beş ilədək əmək stajı olduqda - azı dörd təqvim həftəsi, beş ildən on ilədək əmək stajı olduqda - azı altı təqvim həftəsi, on ildən çox əmək stajı olduqda isə azı doqquz təqvim həftəsi öncədən xəbərdar edilməlidir.

Dəyişikliyə əsasən, işəgötürən işçinin razılığı ilə müəyyən edilmiş müddət əvəzinə orta aylıq əmək haqqının müvafiq əmsalını və Əmək Məcəlləsinin 56-cı maddəsinin ikinci hissəsi ilə müəyyən edilmiş xəbərdarlıq müddəti əvəzinə orta aylıq əmək haqqından az olmamaqla əmək haqqını bir dəfəyə ödəməklə müvafiq əsasla əmək müqaviləsinə xitam verə bilər.

Nəzərinizə çatdırmaq istərdik ki, bu xəbər Qanun layihəsinə əsaslanır. Layihəni nəzərdə saxlayacaq, baş verən dəyişikliklər barədə oxucuları dərhal xəbərdar edəcəyik.

pwc